*Oktyabrın 17-də Bakıda "Caspian Energy Club" "LEF Network Azerbaijan" layihəsi çərçivəsində Azərbaycan, Latviya, Estoniya və Finlandiya arasında biznes əlaqələrinin inkişafına həsr olunmuş "Yaşıl texnologiya və dayanıqlı inkişaf" mövzusunda "Central Baltic&Azerbaijan Business Forum" keçirildi.*



# "Yaşıl texnologiya" və dayanıqlı inkişaf

Tədbirdə "Caspian Energy Club"un sədri və qrupun baş icraçı direktoru Telman Əliyev, Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko, Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya, Estoniyanın Azərbaycandakı səfirliyinin rəhbəri Yaak Lensment və "Caspian Energy Club"un İdarə heyətinin sədrinin birinci müavini və baş maliyyə direktoru Rasim Mahmudov çıxış ediblər. İştirakçı ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və xüsusilə, "yaşıl texnologiya"lar sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi. Bu forum regional iqtisadiyyatın ekoloji dayanıqlılığını artırmaq və təcrübə mübadiləsi yolu ilə ortaq layihələr üçün zəmin yaratmağa köçmək edəcək.

Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko forumda çıxışı zamanı bildirib ki, Avropa İttifaqı (Aİ) Azərbaycanın enerji səmərəliliyi, "yaşıl siyasət"in hazırlanması ilə bağlı səylərini gələcəkdə də dəstəkləməyi planlaşdırır: "Bu yaxınlarda biz COP29-a qədər təbii ehtiyatların qorunmasına dair məlumatlılığı artırmaq üçün ictimai kampaniyaya başladıq. Kampaniyanın adı "Planetimiz üçün - təhlükəsiz su, təmiz hava, təmiz torpaq və "yaşıl enerji"dir. Bu kampaniya çərçivəsində seminarlar və təqdimatlar, sosial media tədbirləri, müxtəlif tədbirlər və fotomüsabiqələr kimi bir çox müxtəlif fəaliyyətlər həyata keçirəcəyik".

Forum zamanı çıxış edən rəsmilər mövcud biznes əlaqələrinin inkişaf etdirilməsi və gələcəkdə daha genişmiqyaslı layihələrin reallaşdırılması üçün öz təkliflərini irəli sürdülər. Bu cür tədbirlər Azərbaycan və Baltikyanı ölkələr arasında tərəfdaşlıq üçün yeni imkanların yaranmasına və "yaşıl texnologiya"lar sahəsində innovativ yanaşmaların tətbiqinə yol açır.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2024.- 18 oktyabr (№ 229).- S.6.